BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2012*

**UOT 94 (479.24)**

# BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYLARINDA SENZ MƏSƏLƏSİNƏ DAİR

**P.R.XƏLİLOV**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu**
***ruxafatya@mail.ru***

*1884-cü ildə təsis olunan və 1920-ci ilə qədər mövcud olan "Bakı neft sənayeçiləri qurultayı"nın fəaliyyəti çox uzun və mürəkkəb bir dövrü – neft sənayesində kapitalist münasibətlərinin özünün yüksək inkişaf mərhələsinə daxil olması, XX əsrin əvvəllərində baş verən fəhlə tətil hərəkatları, I Dünya müharibəsi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti, süqutu və sairə tarixi hadisələri özündə birləşdirən xronoloji çərçivəni əhatə edir. "Bakı neft sənayeçiləri qurultayı" özünün fəaliyyəti dövründə Bakı və Bakıətrafı rayonlarında təhsilin inkişaf etdirilməsində, tibb müəssisələrinin açılmasında və bir sıra xeyriyyə tədbirlərində böyük işlər görmüşdür. Onun fəaliyyəti heç də hamar keçməmiş, çarizmin müstəmləkə siyasətinin qadağalarına məruz qalmışdır. Belə qadağalardan biri də qurultaylarda senzin tətbiq olunması idi.*

**Açar sözlər:** neft, qurultay, şirkət, müəssisə, sahibkar

Azərbaycan tarixşünaslığında bəhs olunan mövzu ilə bağlı xüsusi tədqiqatlara rast gəlinmir. Bu da Sovet dövründə belə mövzuların diqqətdən əkənarda qalması ilə bağlı olmuşdur. Oktyabr çevrilişindən əvvəlki əsərlərin [8] müəllifləri belə məsələlərə ciddi münasibət bildirmir, yalnız və yalnız təsvirlə kifayətlənirdilər. Lakin Şimali Azərbaycanda neft sənayesinin inkişafına həsr olunmuş əsərlərdə [1,2,7,10] Bakı neft sənayeçiləri qurultayına bilavasitə toxunmasına baxmayaraq, müəyyən məsələlərin şərhində bu mövzunun ayrı-ayrı aspektlərinin işıqlandırılmasına cəhd edilmişdir.

Bakı neft sənayeçiləri qurultayının yaranmasından sonra ilk 4-5 il ərzində həmin təşkilat neft sənayeçilərinin olduqca geniş dairələrinin maraqlarını əks etdirirdi. 1884 və 1885-ci illərdə keçirilən ilk iki qurultaylarda hələ senz məhdudiyyəti tətbiq olunmadığına görə, iri neft sənayeçiləri ilə bərabər olaraq, xırda və orta neft sənayeçiləri də bütün məsələlərin müzakirə olunaraq həll olunması prosesində fəal surətdə iştirak edirdilər [10, 43]. Həmçinin neft sənayeçilərinin 1885-ci ilin mart-aprel aylarında keçirilən II qurultayında seçilmiş dəmir yolu komissiyası və qurultay Şurası üzvlərinin əksəriyyətini də

həmin firmaların nümayəndələri təşkil edirdilər. Bu cür vəziyyət iri firmaların maraqlarına zidd idi və hələ neft sənayeçilərinin II qurultayında onların nümayəndələri tərəfindən Qurultay senzlərinin tətbiq olunması tələbi irəli sürülmüşdü [9, 677].

Neft sənayeçilərinin 1887-ci ildə keçirilən IV fövqəladə qurultayında senzin təyin olunması məsələsi müzakirə olunarkən, iri firmalar xırda firmalara qarşı çıxaraq qurultayda iştirak etməkdən imtina etdilər. Buna görə də IV qurultayın keçirilməsi faktiki olaraq baş tutmamış hesab olunurdu [8, 64].

İri firmaların yuxarıda göstərilən səylərinin nəticəsi olaraq neft sənayeçilərinin 1889-cu ilin aprel ayında keçirilən V qurultayında senz sistemi barədə Əsasnamə qəbul olundu. Həmin senz sisteminə görə, qurultaylarda firma nümayəndələrinin topladığı səslər neftin hasilatı, emalı və daşınmasının miqdarına görə hesablanırdı. Beləliklə, neft sənayeçiləri qurultayı təşkilatı neft sənayesi burjuaziyasının, xüsusilə, onun inhisarçı yuxarı təbəqəsinin təşkilati cəhətdən birləşməsi və dövlət aparatı ilə əlaqə yaratması üçün mühüm vasitə oldu [6, 213-214]. Bundan başqa, Qurultayın istənilən fəaliyyət növündə həlledici rol iri firmalara məxsus oldu və faktiki olaraq həmin təşkilat göstərilən firmaların təsiri altına düşdü [1, 96-97].

Senz sisteminin tətbiq olunmasından sonra qurultay Şurasında keçirilən seçki prosesində bir sıra yeniliklər özünü göstərirdi. Məsələn, əgər neft sənayeçilərinin II qurultayında seçilmiş qurultay Şurasının 24 üzvü var idisə, sonrakı illərdə onların sayında get-gedə azalma müşahidə olunmağa başladı. Bu da yuxarıda göstərilən senz sisteminin tətbiq olunmasından irəli gəlirdi. Mövcud sistem seçkilərin keçirilməsi zamanı səslərin toplanması prosesində iri firma nümayəndələrinin kiçik və orta firma nümayəndələrini üstələmələrinə səbəb olurdu.

Ümumiyyətlə, senz sisteminin tətbiq olunması qurultaylarda bütün imtiyazların iri neft sənayeçilərinin sərəncamına keçməsinə şərait yaratdı. Aşağıda bəhs edəcəyimiz faktlar senz sisteminin tətbiq olunmasından sonra keçirilən qurultaylarda iri firmaların daha çox səs toplamalarını bir daha təsdiq edir.

Neft sənayeçilərinin 1897-ci ilin aprel-may aylarında keçirilən XI qurultayında neftin hasilatı, emalı və daşınması müqdarına görə səslərin hesablanması prosesində "Nobel qardaşları" şirkəti bütün səslərin − 10, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" 5,8, "Mantaşov və K$^0$" firması − 5,2, "Tağıyev H.Z." firması − 5, "Şibayev və K$^0$" firması isə 4,7 %-nə malik oldular. Bu firmalar səsvermədə iştirak edən 99 firma arasında səslərin miqdarının ən çox hissəsinə sahib olmağa görə ilk beşlikdə qərarlaşmışdılar. "Əsədullayev Şəmsi" firması bütün səslərin 1,6 %-nə malik olmaqla 15-ci, "Nağıyev Musa" firması isə 0,5 %-nə malik olub, 44-cü göstəriciyə malik idilər [17, 286].

Neft sənayeçilərinin 1903-cü ilin dekabr ayında keçirilən XVIII qurultayında neftin hasilatı, emalı və daşınması miqdarına görə səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 13, "Xəzər-Qara

dəniz neft sənayesi və ticarəti cəmiyyəti" − 7,3, "A.İ.Mantaşov və K$^0$" firması − 7,2 və "Kaspi" şirkəti − 4,5 %-nə malik oldular. Bu firmalar səsvermə prosesində iştirak edən 125 firma arasında ən çox səs toplayaraq, ilk dördlükdə qərarlaşmışdılar. "Əsədullayev Şəmsi" firması bütün səslərin 2,4 %-nə malik olaraq 9-cu, "Nağıyev Musa" firması isə 2,2 %-nə malik olub, 10-cu göstəriciyə malik idilər [18, 393].

Neft sənayeçilərinin 1905-ci ilin yanvar-fevral aylarında keçirilən XX qurultayında yuxarıda göstərilən göstəricilərə görə səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin 12,3, "A.İ.Mantaşov və K$^0$" firması 6,6, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" 6,2, "Kaspi" şirkəti isə 5 %-nə malik oldular. Bu firmalar 122 firma arasında ən çox səs toplayaraq, ilk dördlükdə qərarlaşmışdılar. "Nağıyev Musa" firması bütün səslərin 2,6 %-nə malik olmaqla 8-ci, "Əsədullayev Şəmsi" firması isə 1,6 %-nə malik olub, 16-cı göstəriciyə malik idilər [15, 517].

Beləliklə, yuxarıdakı məlumatlardan aydın olur ki, senz sisteminin tətbiq olunmasından sonra iri firmalar səslərin çox hissəsinə malik olub, neft sənayeçiləri qurultaylarında istənilən qərarların öz mənafelərinə uyğun olaraq qəbul olunmasına şans qazanırdılar. H.Z.Tağıyevin növbəti qurultaylarda iştirak etməməsi isə sonradan onun neft işi ilə mütəmadi olaraq məşğul olmaması ilə bağlı idi.

Neft sənayeçilərinin 1906-cı ilin fevral ayında keçirilən XXI fövqəladə qurultayında səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin 12,3, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" 7,1, "A.İ.Mantaşov və K$^0$" firması 6,7 və "Kaspi" şirkəti 4,2 %-nə malik oldular. Bu firmaların topladığı səslər 114 firma arasında ən yüksək göstəricilər idi. "Nağıyev Musa" firması bütün səslərin 2,9 %-nə malik olmaqla 7-ci, "Əsədullayev Şəmsi" firması isə 2,4 %-nə malik olub, 8-ci göstəriciyə malik idilər [16, 3.].

Neft sənayeçilərinin 1906-cı ilin may-iyun aylarında keçirilən XXII qurultayında səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 14, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" − 5,7, "Mantaşov və K$^0$" firması − 5,4, "Şibayev və K$^0$" firması − 4,2, "Kaspi" şirkəti − 4, "Bakı neft cəmiyyəti" və "Əsədullayev Şəmsi" firmalarının hər biri − 3,6, "Nağıyev Musa" firması isə 3 %-nə malik oldular. Bu firmaların topladığı səslər 94 firma arasında ən yüksək göstəricilər idi [3,vv.9-arxa-10].

1906-cı ilin oktyabr ayında ticarət və sənaye naziri D.A.Filosofovun sərəncamı ilə neft sənayeçiləri qurultaylarında səslərin hesablanmasına dair senzlər barədə Əsasnamədə müəyyən dəyişikliklər edildi [9, 678]. Yeni qaydanın tətbiq olunmasına görə, neft sənayeçiləri qurultaylarında səslərin hesablanması prosesində iri firma nümayəndələrinin səslərinin azalması hesabına xırda və orta firma nümayəndələrinin səslərinin hesablanmasında kəskin surətdə artım baş verdi. Neft sənayeçilərinin 1906-cı ilin noyabr-dekabr aylarında keçirilən XXIII qurultayında 8 iri firma bütün səslərin cəmi 27,5 %-nə malik oldular. 1891-ci ilin senzlərinə görə isə həmin 8 firmadan yalnız 4-ü

(“Nobel qardaşları” şirkəti, “Kaspi” şirkəti, “Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti”, “Mantaşov və K$^{0}$” firması) qurultaylarda bütün səslərin 35 %-nə malik olmuşdular. Xüsusilə, “Nobel qardaşları” şirkətinin malik olduğu səslərin miqdarı kəskin surətdə azalaraq, 179-dan 20-yə qədər aşağı düşdü [2, 121].

Lakin qeyd etmək lazımdır ki, digər iri firmalarda olduğu kimi, “Nobel qardaşları” şirkətinin də neft sənayeçiləri qurultaylarındakı əsl çəkisi təkcə səslərin hesablanmasının miqdarına görə müəyyənləşmirdi [2, 121-122].

Neft sənayeçilərinin 1908-ci ildə keçirilən XXV və XXVI qurultaylarında da səslərin hesablanması prosesində eyni nəticələr təkrar olundu. Həmin qurultaylarda 7 iri firma bütün səslərin ümumi miqdarının 27,5 %-nə malik oldular. Həm də təkcə “Nobel qardaşları” şirkətinin payına 22 səs düşürdü [7, 143].

Senz sistemində yuxarıda göstərilən yeni qaydanın tətbiq olunması Qurultay təşkilatında mövcud olan firmaların nisbətində müəyyən bir müddət ərzində bəzi yeniliklərə gətirib çıxarsa da, neft sənayesində fəaliyyət göstərən qüvvələrin real nisbətində heç bir şeyi dəyişdirmədi [10, 45]. Həmin illərdə iri kapital qruplarından yenə də “Nobel qardaşları” şirkəti və Mantaşov-Qukasov-Lianozov firmalarının qrupu neft sənayesində əsas rəqiblər kimi çıxış edirdilər [2, 122]. 1906-cı ilin senzi çarizmin “antisindikat” tədbirlərində xüsusi yer tutsa da [10, 45], öz müttəfiqlərinin və müxtəlif növ sazişlərə görə özündən asılı olan xırda və orta firmaların dayağından istifadə edən iri firmalar Bakı neft rayonunda inhisarçı mövqelərə malik olub, Qurultay təşkilatında öz üstün nüfuzlarını qoruyub saxladılar [9, 678].

İndi isə köhnə senz sisteminə görə keçirilən XVIII qurultayda və yeni senz sisteminə görə keçirilən XXV qurultayda müxtəlif qərarların qəbul olunması prosesində firmalar qrupunun rolunu müqayisə edək (5,v.8-arxa):

| **Firmalar qrupu** | **XVIII qurultay** | | | | **XXV qurultay** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Firmaların sayı** | | **Səslərin miqdarı** | | **Firmaların sayı** | | **Səslərin miqdarı** | |
| **I** | 5 | 4 % | 512 | 36,1 % | 5 | 3,7 % | 78 | 22,6 % |
| **II** | 39 | 31,2 % | 426 | 30,1 % | 13 | 9,7 % | 65 | 18,8 % |
| **III** | 55 | 44 % | 453 | 32 % | 34 | 25,4 % | 120 | 34,8 % |
| **IV** | 26 | 20,8 % | 26 | 1,8 % | 82 | 61,2 % | 82 | 23,8 % |
| **CƏMİ** | 125 | ### | 1.417 | ### | 134 | ### | 344 | ### |

Cədvələ nəzər yetirdikdə aydın surətdə məlum olur ki, köhnə senz sisteminə görə, səslərin nisbətən çox hissəsi iri neft sənayeçilərinin, zavod sahibkarlarının və neftin ixrac olunması işi ilə məşğul olan firmaların daxil olduğu I qrupa mənsub idi (bütün səslərin 36,1 %-i). Yeni senz sisteminə görə isə səslərin nisbətən çox hissəsi (bütün səslərin 34,8 %-i) (5,v.8-arxa) orta neftçıxarma firmalarının daxil olduğu III qrupa keçdi. Köhnə senz sistemində iri firmaların daxil olduğu təkcə I qrupa nisbətən istisnasız olaraq orta və xırda neftçıxarma firmaları birlikdə daha az səsə (33,8 %) malik idilər. Yeni

senz sisteminə görə isə orta və xırda neftçıxarma firmalarının malik olduğu səs (58,6 %) öz miqdarına görə, təkcə I qrupu üstələmir, hətta bütün zavod sahibkarlarının və neftin ixrac olunması işi ilə məşğul olanların malik olduğu səsi də (41,4 %) ötüb keçirdi. Əgər köhnə senz sisteminə görə, xırda neftçıxarma firmalarının payına səslərin çox az hissəsi (1,8 %) düşürdüsə, artıq yeni senz sistemində onlar səslərin ümumi miqdarının 23,8 %-nə malik olaraq 2-ci ən yaxşı göstəriciyə malik oldular və zavod sahibkarları ilə neftin ixrac olunması işi ilə məşğul olan firmaları 3-cü və 4-cü yerə sıxışdırdılar (5,v.9).

Köhnə senz sistemi qüvvədə olarkən XVIII qurultayın iclaslarında 125 firmadan 31 firmanın nümayəndələri (24,8 %) iştirak etmişdilər. Yeni senz sistemi tətbiq olunduqdan sonra XXIII qurultayın iclaslarında 149 firmadan 32 firmanın nümayəndələri (21,5 %) iştirak etmişdilər. Başqa sözlə desək, əgər köhnə senz sistemində neft sənayeçilərinin malik olduğu absenteizm (etiraz əlaməti olaraq seçkilərdə iştirak etməkdən və yığıncağa gəlməkdən boyun qaçırma – **P.X.**) 75,2 % təşkil edirdisə, yeni senz sistemində az qala 80 %-ə qədər qalxmışdı (5,v.10).

Yuxarıda göstərilən cədvəldə dörd qrupun malik olduğu qüvvələr nisbəti onu göstərir ki, yeni senz sistemi xırda və orta firmaların iri firmalar üzərində, neftçıxarma firmalarının zavod sahibkarları və neftin ixrac olunması işi ilə məşğul olan firmalar üzərində üstünlük qazanmasına, iri firmaların xırda və orta firmalardan asılı vəziyyətdə qalmasına böyük imkan yaratdı (5,v.10-arxa). Lakin gözlənilən dəyişiklik baş vermədi. Bu isə senz sistemi ilə əlaqədar deyildi. Biz görürük ki, yeni senz sistemində neft sənayeçilərinin absenteizmi nisbi rəqəmlərdə hətta yuxarı qalxıb. Buradan aydın olur ki, firmaların böyük əksəriyyəti öz mövcud maraqlarını hələ ki, Qurultayın işi ilə bağlamırdılar (5,v.11).

Neft sənayeçilərinin 1909-cu ilin noyabr-dekabr aylarında keçirilən XXVIII qurultayında "Nobel qardaşları" şirkəti bütün səslərin 5,9, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" 4,6, "Şibayev S.M. və $K^0$" firması 4,3, "Mantaşov A.İ. və $K^0$" firması 3,8, "Kaspi" şirkəti isə 3,5 %-nə malik oldular. Bu firmaların topladığı səslər 144 firma arasında ən yüksək göstəricilər idi. Həmin firmalar arasında "Nağıyev Musa" firması bütün səslərin 2,7 %-nə malik olmaqla 6-cı, "Əsədullayev Şəmsi" firması isə 1,9 %-nə malik olub, 9-cu göstəriciyə malik idilər [14,X,XIII-XV,XVII].

Neft sənayeçilərinin 1910-cu ilin noyabr-dekabr aylarında keçirilən növbəti XXIX qurultayında səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 6, "Xəzər-Qara dəniz neft ənayesi və ticarəti cəmiyyəti" − 4,4, "Şibayev və $K^0$" firması − 3,9, "Mantaşov A.İ. və $K^0$" firması − 3,6, "Kaspi" şirkəti isə 3,4 %-nə malik oldular. Bu firmaların toladığı səslər 152 firma arasında ən yüksək göstəricilər idi. Həmin firmalar arasında "Nağıyev Musa" firması bütün səslərin 2,6 %-nə malik olmaqla 6-cı, "Əsədullayev Şəmsi" firması isə 2 %-nə malik olub, 8-ci göstəriciyə malik idilər [11, 4,6-8,10].

Yuxarıdakı məlumatlardan aydın olur ki, əvvəlki illərə nisbətən 1909 və 1910-cu illərdə keçirilən qurultaylarda "Nobel qardaşları" şirkətinin malik olduğu səslərin miqdarı təxminən yarıbayarı azalmış, "Nağıyev Musa" və "Əsədullayev Şəmsi" firmalarında isə, demək olar ki, həmin səviyyədə qalmışdır.

Neft sənayeçilərinin 1915-ci ilin noyabr-dekabr aylarında keçirilən XXXIV qurultayında səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 5,5, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" − 4,3, "Kaspi" şirkəti − 3,7, "Mantaşov və $K^0$" firması − 3,4, "Əsədullayev Şəmsi" və "Şibayev S.M. və $K^0$" firmalarının hər biri − 3, "Bakı neft cəmiyyəti" və "Lianozov Q.M. və varisləri" firmalarının hər biri − 2,7, "Nağıyev Musa" firması isə 2,4 %-nə malik oldular. Bu firmaların topladığı səslər 130 firma arasında ən yüksək göstəricilər idi [12, 4,6-9].

Neft sənayeçilərinin 1916-ci ilin iyun ayında keçirilən XXXV fövqəladə qurultayında səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 5,8, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti" − 4,9, "Kaspi" şirkəti − 3,9, "Mantaşov və $K^0$" firması − 3,2, "Şibayev S.M. və $K^0$" firması və "Bakı neft cəmiyyəti"nin hər biri − 2,9, "Nağıyev Musa" və "Lianozov Q.M. və varisləri" firmalarının hər biri − 2,6, "Əsədullayev Şəmsi" və Rus "Neft" şirkətinin hər biri isə 2,3 %-nə malik oldular. Bu firmaların topladığı səslər 133 firma arasında ən yüksək göstəricilər idi [13, 4-9].

Neft sənayeçilərinin XXXVIII qurultayında (qurultayın keçirilməsi tarixi barədə məlumat yoxdur. Təxmini hesablamalara görə, 1919-cu ilin sonu və 1920-ci ilin əvvəli nəzərdə tutulur – **P.X.**) səslərin hesablanması zamanı "Nobel qardaşları" şirkəti bütün səslərin − 5,9, "Mantaşov və $K^0$" firması − 4,2, "Lianozov Q.M. və varisləri" və "Şibayev S.M. və $K^0$" firmalarının hər biri − 3,1, "Bakı neft cəmiyyəti" və Rus "Neft" şirkətinin hər biri − 2,8, "Əsədullayev Şəmsi" və "Mirzoyev qardaşları və $K^0$" firmalarının hər biri isə 2,4 %-nə malik oldular. Bu firmaların topladığı səslər 116 firma arasında ən yüksək göstəricilər idi [4,vv.1-1arxa,2-2-arxa].

Beləliklə, neft sənayeçiləri qurultaylarında senz sistemi tətbiq olunduqdan sonra da təşkilatın bütün fəaliyyəti dövrü 4 iri neft sənayesi firmaları olan "Nobel qardaşları" şirkəti, "Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti", "Mantaşov A.İ. və $K^0$" firması və "Kaspi" şirkəti səslərin hesablanması prosesində ən çox səs toplayan firmalar kimi çıxış etməkdə davam edirdi. Bu da səsvermədə iştirak edən firmaların qazandığı səslərdən, onların neft sənayesi sahəsindəki məhsuldarlığından asılı idi. Belə vəziyyət istənilən qərarların onların mənafelərinə uyğun olaraq qəbul olunmasına şərait yaradır, xırda və orta firmaların mövqelərinin zəifləməsinə gətirib çıxarırdı. Əgər "Bakı neft sənayeçiləri qurultayı"nın təsis olunmasından sonra çağırılan ilk qurultaylarda keçirilən səslərin hesablanması prosesi daha çox obyektiv prinsiplər üzərində qurulmuşdusa, artıq sonrakı illərdə həmin proses bürokratik xarakterə malik olmağa başlamışdı.

# ƏDƏBİYYAT


1. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М.: Социально-экономическая литература, 1959, 295 с.
2. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: АГУ, 1974, 232 с.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.798, s.1, iş 654.
4. ARDTA, f.798, s.1, iş 2286.
5. ARDTA, f.798, s.1, iş 2341.
6. Azərbaycan tarixi. 7 cilddə. IV c. (XIX əsr). Bakı: Elm, 2000, 508 s.
7. Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку: Элм, 1984, 240 с.
8. Гулишамбаров С.И. Обзор фабрик и заводов Бакинской губернии. Тифлис: Типография канцелярии Главноначальствующего гражданской частью на Кавказе, 1890, 278 с.
9. Монополистический капитал в нефтяной промышленности России (1883-1914). Документы и материалы. М-Л.: Академия Наук СССР, 1961, 796 с.
10. Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 с.
11. Сумма и списки голосов по добыче, перекачке нефти и выработке керосина и смазочных масел, причитающихся фирмам на XXIX очередном съезде нефтепромышленников в г. Баку (по данным за 1909 год) // Труды XXIX-го очередного съезда нефтепромышленников в гор. Баку (с 30-го ноября по 13-ое декабря 1910 года). Том I. Баку: Электропечатня газеты «Баку», 1911, с.1-28.
12. Сумма и списки голосов, причитающихся фирмам на XXXIV очередном съезде нефтепромышленников в г. Баку по добыче, перекачке и по выработке керосина и смазочных масль (по данным за 1914 год) // Труды XXXIV очередного съезда нефтепромышленников в гор. Баку (30 ноября - 11 декабря 1915 г.). Баку: Типография «Труд» С.Г.Берладир и К-о, 1916, с.1-23.
13. Сумма и списки голосов, причитающихся фирмам по добыче, перекачке и по выработке керосина и смазочных масль на съездах нефтепромышленников в 1916 году (по данным за 1915 год) // Труды XXXV экстренного съезда нефтепромышленников в гор. Баку (10 июня 1916 г.). Баку: Тип. «Труд» С.Г.Берладир и К-о, 1916, с.1-22.
14. Сумма голосов, причитающихся фирмам на XXVIII очередном съезде нефтепромышленников в гор. Баку (по данным за 1908 год) // Труды XXVIII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 30-го ноября по 16-е декабря 1909 года). Том I. Баку, Типографии: «Труд» и 1-го Тип. Т-во, 1910, X-XIX.
15. Труды XX-го очередного съезда нефтепромышленников в гор. Баку (с 31-го января по 13-е февраля 1905 года). Том II. Баку: Типография 1-го Типографского Товарищества, 1905, 525 с.
16. Труды XXI-го экстренного съезда нефтепромышленников в гор. Баку (с 17 по 21 февраля 1906 года). Баку: Типография 1-го Типографского Товарищество, 1906, 88 с.
17. Труды XI очередного съезда нефтепромышленников в гор. Баку (с 21-го апреля по 2-е мая 1897 года). Баку: Типография «Арор», 1897, 184 с.
18. Труды XVIII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 5-го по 22-е декабря 1903 года). Том II. Баку: Типография 1-го Типографского Товарищества, 1904, 400 с.

## К ВОПРОСУ О ЦЕНЗЕ НА СЪЕЗДАХ БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ

**П.Р.ХАЛИЛОВ**

### РЕЗЮМЕ

Статья посвящена рассмотрению вопроса о цензовом статусе фирм – количестве их голосов (согласно объему добычи, переработки и транспортировки ими нефти) при принятии решений на Съездах бакинских нефтепромышленников. В статье отмечается, что за весь период функционирование организации бакинских нефтепромышленников вне зависимости от изменений, происходивших в цензовой системе, большой процент голосов ввиду их производительности принадлежал крупным фирмам.

**Ключевые слова:** нефть, съезд, фирма, учреждение, предприниматель

## ABOUT THE PROBLEM OF QUALİFİCATİON AT BAKU OİL İNDUSTRİALİSTS CONGRESS

**P.R.KHALİLOV**

### SUMMARY

The article notes that, during the functioning of the organization of Baku Oil Industrialists, the majority of production vested in the firms in spite of the ongoing changes in the quality system.

**Key words:** oil, congress, firm, establishment, owner